“İLK”lərin paradında

Øÿäàà Úÿôÿðîâóí þìöð éîëóíäà éàøàéàí ôÿðÿù äóéüóëàðû

Àçÿðáàéúàí ÊÏ Ì Ê-íûí êàòèáè Ð.Çåéíàëîâ âÿ Ø.Úÿôÿðîâóí Óëéàíîâñêè øÿùÿðèíäÿ éàøàéàí àçÿðáàúéàíëûðèà Í.Íÿðè Ì àíîâóí ùåéêÿëè ãàðøûñûíäà ýþööø (1988).

(ßââÿëè þòÿí ñàéëàðû Ì ûçäà)

Şəddad Cəfərovun əməli fəaliyyətində həyatını bəzəyən “ilk”ləri yəqin ki, tam axıradək öyrənmək çətin olar. Və demək yazıya almaq da çətin olar. Çünki həyatını, əməli fəaliyyətini yeni ideyalar üzərində quran hər hansı bir şəxs yenilikçidir, hər gün yeni, orijinal bir əməli ilə cəmiyyətin inkişafı naminə yeni yollar aça bilir. Təbiidir ki, Şəddad müəllim də yenilikçi olduğu üçün həyatını və əməli fəaliyyətini yeniliklər əsasında qurduğu üçün onun həyatında, əməli fəaliyyətində **“ilk”**lər çoxdur. Və o qədər çoxdur ki, biz onların bir çoxunu diqqətdən kənarda qoymalı oluruq. Ancaq əsasən elə **“ilk”**ləri qeydə almağa çalışırıq ki, bunlar həm onun həyatında, həm də cəmiyyətin həyatında xüsusi əhəmiyyət kəsb edib.

Ötən əsrin 80-ci illərinin sonları həmin dövrün şahidlərinin yaxşı yadındadır. Və biz özümüz həmin dövrün şahidi olduğumuzdan insan toplumları arasındakı ziddiyyətlər, qarşılaşan təzadlar, gərginliklər yadımızdan çıxmayıb. Cəmiyyətin həyatında siyasi kataklizim başlayan kimi məlum oldu ki, biz yeni dünya düzəninə çox hazırlıqsız gəlmişik. Sovet İttifaqında yenidənqurma adı ilə başlanan dağıdıcılıq prosesi ermənilər fəallaşdırdı. Burada söhbət təkcə ermənistandan getmir. Dünyadakı demək olar ki, bütün ermənilərin birgə fəalliyyətə başlaması göstərdi ki, onlar təşkilatlanıblar, ümumdünya düşüncəsində kifayət qədər yer tutublar. Bəli, o vaxt deyirdilər: “Erməni diasporu güclüdür. Ermənilərin lobbi sistemi var. Ermənilər vahid mərkəzdən idarə olunur. Dünya ermənilərini erməni kilsəsi istiqamətləndirir”.

Bu çoxtərəfli, çoxistiqamətli siyasi qənaətlər Azərbaycana şamil oluna bilmirdi. Yəni azərbaycanlılar milli məram naminə birləşə bilməmişdilər. Demək olar ki, azərbaycanlıların milli, siyasi mərkəzləri yox idi.

Şəddad Cəfərov Ulyanovsk şəhərinə gələn kimi birinci növbədə ona tapşırılan işin məğzi ilə tanış olur. “Ulyanovskaya pravda” nəşriyyatının problemlərini həll etmək istəyir. Vətəndən uzaqda Vətən olan azərbaycanlının Azərbaycana qazandıracağı imicin, Azərbaycana gətirəcəyi dividentin yüksək, mənəvi tərəflərini əsas götürür. Və ömrünü, həyatını yeni mərhələ kimi bu məramlar üzərində qurmağa çalışır. Şəhərdə və vilayətdə yüksək vəzifə tutan **“ilk”** azərbaycanlı kimi milli mənafe məsələlərini də ustalıqla, səriştə ilə, qərəzli siyasi rəng verilməsinə şərait yaratmadan yoluna qoymağa çalışır. Çünki o vaxt Ulyanovski vilayətində və Ulyanovski şəhərində çoxlu azərbaycanlı yaşayır və işləyirdi. Onların bəziləri Rusiyada təhsil almış və təyinatla bu vilayətə göndərilmişdilər. Bəziləri hərbi xidmətdən sonra qalmışdı. Əlbəttə, dolanışıq ardınca gəlib burada yaşamalı olan azərbaycanlılar da az deyildi. İndi onları bir yerə toplamaq, onların problemləri ilə maraqlanmaq o qədər də asan deyildi. İndiyə qədər onlar əlbəttə, bir yerə toplana bilməmişdilər. Şəddad Cəfərov əvvəlcə fəal azərbaycanlıları yanına dəvət elədi. Onlarla təkbətək söhbətlər apardı. Bir növ özünəxas ağsaqqal təmkini ilə onları bir yerə cəmləşməyə dəvət etdi. Əlbəttə, özünün şəxsi hörmət və nüfuzundan istifadə ilə müəyyən problemləri olan azərbaycanlı ailələrin yardımçısı da oldu. Tez-tez belə məsələlərlə bağlı vilayətin rəhbərliyinə müraciət edirdi.

Beləliklə, Ulyanovski vilayətində və Ulyanovski şəhərində Şəddad Cəfərov ilk azərbaycanlı icmasının təşkilatlanmasına nail oldu. Bu, **“ilk”** diaspora mühiti idi. O vaxt Azərbaycan rəhbərliyindən, Sovet İttifaqının müxtəlif şəhərlərinə məhsul şəxslər ezam olunurdu. Onlar, ezam olunduqları yerlərdə azərbaycanlıların təşkilatlanması üçün səylər göstərirdilər.

1988-ci ildə Mərkəzi Komitənin katibi Rafiq Zeynalov da Ulyanovski şəhərinə gəlmişdi. O vaxt, vilayətin rəhbərliyi Şəddad Cəfərovun hörmət və nüfuzunu nəzərə alaraq hörmətli qonağı qarşılayan nümayəndə heyətinə rəhbər onu təyin etmişdi. Həmin dövrün fotoxronikasını əks etdirən şəkillər Şəddad Cəfərovun xüsusi nüfuz sahibi olduğunu təsdiq edən dəyərli sənədlərdir.

1985-1990-cı illərdə Ulyanovskidə işləyəndə mətbəənin sexlərində **“ilk”** dəfə istirahət otaqları yaradır. O vaxt bu çoxlarına qəribə gəmişdi. Mətbəə hara, istirahət otaqları hara. Ancaq, Şəddad müəllim qısa müddətliyə olsa da, ağır işdə çalışan mətbəə işçisinin dincəlməsini vacib hesab edirdi. Qısa istirahət fasilələri zamanı növbəlilik gözlənildiyindən işin ahəngi pozulmurdu. Və bu zaman fəhlələrə gözəl Azərbaycan çayı təklif olunurdu. **“İlk”** dəfə Azərbaycan çayının ətrini, gözəlliyini görənlər heyranlıqlarını gizlətmirdilər. Çayın vətəni haqqında məlumatlarla yanaşı Azərbaycan çayının Vətəni kimi Lənkəranın, Astaranın gözəl mənzərələri haqqında məlumatı Ulyanovski sakinləri maraqla öyrənirdilər. Bütün bunlar Azərbaycana sevgi təlqin edirdi.

Elə indi də əlamətdar günlərdə, tarixi bayramlarda, müxtəlif yubiley dönəmlərində Şəddad Cəfərovu Ulyanovski şəhərinə dəvət edirlər. Bir qərinə bundan əvvəlki zamanın insanlarından onu unutmayanları çoxdur. Onların arasında bir vaxt Şəddad Cəfərovun bir araya gətirdiyi azərbaycanlılar da az deyil.

Óëéàíîâñê øÿùÿðèíäÿ éàøàéàí àçÿðáàéúàíëûðëà ýþöøø (1988)

Şəddad Cəfərov 88-ci il hadisələri zamanı yaşayıb işlədiyi Ulyanovski şəhərindən Azərbaycanı uzaqdan-uzağa olsa da, görür və müşahidə edirdi. Bəli, ölkədən müntəzəm xəbər tutmaq, Vətənin halını bilmək, xalqın iztirabları ilə yaşamaq, elə onu uzaqdan-uzağa görməkdir. Şəddad Cəfərov o vaxt Azərbaycana maddi və mənəvi dəstəyini əsirgəmədi. Müxtəlif çap ləvazimatları, xammal və s. məhz onun sayəsində Azərbaycana gəlib çatırdı. Moskva mətbuatında yazı dərc etdirmək istəyən azərbaycanlı müəlliflər Şəddad Cəfərovun vasitəsi ilə mərkəzi mətbuata çıxa bilirdilər.

Əlbəttə, yazı dilinin yüyürəkliyi ilə biz, zamanın xeyli hissəsini geridə buraxıb dövrümüzə yaxınlaşmaq istərdik. Şəddad Cəfərov istehsalatda, həyatdakı əməli fəaliyyətində nə qədər yenilikçidirsə, Azərbaycanda poliqrafiyanın elm kimi inkişaf etdirilməsinə də xüsusi töhvələr verib. Və **ilk** dəfə olaraq “Kitab çapı” (2013) adlı monoqrafiyasını yazıb nəşr etdirib. Bu monoqrafiyada o, **“ilk”** dəfə Azərbaycanda kitab çapı işinə elmi cəhətdən yanaşmanı əsaslandırır: “Bədii kitablarda istifadə olunan şəkillər əsərin qəhrəmanının dolğun və parlaq simasını oxucuya göstərir. Elmi kitablarda və dərsliklərdə şəkillər materialı aydın və anlaşıqlı edir. Başlıqların düzgün seçilməsi kitabın məzmununu başa düşməyə imkan verir və hissələr arasında əlaqələndirmə rolunu oynayır. Mətndə fərqləndirilmiş hissələr müəllifin əsas saydığı fikrə oxucunun diqqətini yönəldir. Şəkil və şriftlərin ölçüləri, sətrin uzunluğu, hərf arası, söz arası və sətirlər arası məsafələr, kağızın və boyaların rəngi və s. kitabın oxunaqlılığına çox böyük təsir göstərir. Kitabın ölçüsü onun məzmunu ilə uyğunluq təşkil edirsə, müxtəlif yerlərdə oxunmağına şərait yaradır (ictimai nəqliyyatda, istirahətdə və s.). şəkillərin, başlıqların düzgün yerləşdirilməsi, göstəricilər və qeydlər isə kitabla ünsiyyəti xeyli asanlaşdırır”. Buradaca yerinə düşər deyim ki, Şəddad müəllim mənim bir çox kitablarımın naşiri olub. Və eləcə də “Kredo” qəzetinin ən fəal oxucu və müəlliflərindən biridir. Qəzet işinin gərginliyi və çətinliyi haqqında danışmağa lüzum görmürəm. Ancaq, Şəddad müəllim qəzetdə buraxdığımız texniki səhvləri, tərtibatdakı kobud qüsurları görməzliyə vurmur. O, daha dəqiq, düzgün variantı izah edir, başa salır. Və biz də növbəti dəfə həmin nöqsandan yan keçməyə çalışırıq. Şəddad müəllim də nəticə çıxartdığımızı görüb məmnun olur: “Bilirsən, dostum, bəlkə də belə israrla tələb etməzdim. Amma bunları demək mənim borcumdur. Axı mən “Kredo” qəzeti redaksiya heyətinin üzvüyəm”. Doğru deyir Şəddad müəllim. O, bizim qəzetin çox fəal əməkdaşı, səmimi yazarı və qəzetimizin simasını göstərən redaksiya heyətinin üzvlərindən biridir.

Beləliklə, kitab işi, kitab nəşri ilə bağlı elmi ideyalarını bundan sonra da inkişaf etdirir, tədqiqatlar aparır. Bu ardıcıl və inamlı tədqiqatları sayəsində yeni monoqrafiyasını yazır. Bu yeni əsərində o, diqqəti əsas bir məsələyə, kitabının gözəlliyinin elmi mahiyyətinə cəlb etmək istəyir. Və kitabının epiqrafı olaraq belə bir dəyərli fikri yazıya gətirir: “Klassik musiqini hər adam başa düşə bilmədiyi kimi kitabın gözəlliklərini də hər adam görə bilmir”. Doğru deyir, kitabın estetik görkəmi, tərtibatı oxucunu kənardan özünə cəlb etməlidir. Şəddad Cəfərov sözün həqiqi mənasında kitab qayğısı ilə yaşayan insandır. Kitabın nəşrinə qoyulan estetik tələbləri də o, “ilk” dəfə elmi cəhətdən işləyir, dərin, nəzəri mahiyyət verir. O, “Kitab gözəlliyinin elmi mahiyyəti” (2017) monoqrafiyasının “Ön söz”ündə əsas məramını belə açıqlayır: “Mən deyərdim ki, tərtibat işi özü də bir elmdir. Bu elmi həyata keçirmək üçün müəyyən qanunları bilmək və onların icrasına nail olmaq lazımdır. Texnologiyanın inkişafı nəticəsində müxtəlif quruluşlu şriftlərin sayı artmış və onlar kompüter proqramlarına yerləşdirilmişdir. Lakin konpüterdə işləyən operator və dizayner şriftləri özlərinin zövqünə görə şaquli və üfiqi istiqamətdə ölçüsünü dəyişə bilir. Və bununlada bəzən mətni eybəcərləşdirir. Belə şəxsi təşəbbüslərin reallaşması məqsədə uyğun sayılmır. Kitab tərtibatı incəsənətin bir növü olduğu üçün onu hərə istədiyi kimi hazırlamamalıdır.

Kitabın gözəlliyinin əsası, onu təşkil edən bütün elementlərin bir-birinə mütənasib olmasıdır. Bu mütənasiblik səhifədə olan boşluqların nisbətində, sətirlər arası boşluqların eyniliyində, səhifə nömrəsini səhifələrdə mətndən eyni məsafədə olmasında və s. özünü göstərir”. Şəddad müəllim bu monoqrafiyada kitab işi sahəsində bir çox hallarda xırda görünən, ancaq vacib olan məsələlərə **ilk** dəfə əhatəli və aydın münasibət sərgiləyir. Abzas, titut səhifəsi, kitabın cildi, mətn ölçüsünün sorğu elementləri və hətta kitabın reklamı kimi məsələlər nümunə ola bilər.

Şəddad Cəfərovun mədəniyyət tariximizdə və kitab çapı mühitimizdə çox dəyərli bir “**ilk”**i də var. Bu “Əlifba” kitabının latın qrafikası ilə **“ilk”** nəşridir. O vaxt bu iş demək olar ki, həll oluna bilməyən bir problemə çevrilmişdi. Hətta həmin o “Əlifba” kitabını müəllif Yahya Kərimovun özünün ezamiyyəsi ilə Türkiyədə nəşrini təşkil etmək istəsələr də bu da alınmamışdı. Şəddad Cəfərov təyyarədə təsadüfən Yahya Kərimovla görüşür. Onun kefsiz və qanı qara olmağının səbəbini soruşur. Məsələ aydın olur. Şəddad Cəfərov təyyarədə verdiyi vədə əməl edir. 1992-ci il avqustun axırında “Azərbaycan” nəşriyyatında “Əlifba” 135000 tirajla çap olunur, ünvanlara çatdırılır. Bu, o zamanın qeyri-adi işi idi. Biz bu barədə əvvəllər də geniş danışdığımızdan fikrimizi bir qədər müxtəsər ifadə etdik.

Şəddad Cəfərov Azərbaycanda nə qədər müəllifin ilk kitabını buraxıb. Kitab çapı işinin texnoloji baxımdan inkişafına ilk dəfə təkanlar verib. Yəqin ki, bundan sonra da Şəddad Cəfərov **ilk**lərinin paradı davam edəcək.

... Və nəhayət, Şəddad Cəfərovun bir **“İlk”**ini də qeyd edim. 80 illik yubileyindən sonra da mətbəə ilə bağlı olan əməli fəaliyyətindən ayrılmayıb. O deyir ki, mətbəə işinin insan səhhətinə heç bir ziyanı yoxdur. Yəqin ki, bu **“İlk”** qənaətdir. Ancaq, özünün şərhi ilə əsaslandırılmış qənaətdir: Əlbəttə, bunun üçün əməyin düzgün texniki təşkili olmalıdır. İş mühitinin tibbi və estetik tərəfləri sərtliklə gözlənilməlidir.

ßëè Ðçà ÕßËßÔÊÈ
25.09.2020